# Pedaqoji tənqid günümüzün vacib tələblərindən biri kimi



**Ənvər ABBASOV,**
*Bakı Slavyan Universitetinin prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əmakdar müəllim*

Araşdırmalardan belə nəticəyə gəlmək olur ki, pedaqoji tənqid və tənqidi pedaqogikaya elmi mənbələrdə yanaşı işlənən anlayışlar kimi müraciət olunur. Ümumi cəhət ondan ibarətdir ki, pedaqoji tənqid də, tənqidi pedaqogika da ənənəvi təhsil modellərinə yaradıcı yanaşmağı və yeniliklərə açıq olmağı, inklüziv və ədalətli öyrənmə mühitini təşviq edir. Onlara təhsil sahəsində getdikcə daha çox əhəmiyyət daşıyan anlayışlar kimi yanaşılır. Bəlkə də, elə o səbəbdəndir ki, bəzi hallarda bu anlayışlar eyni mənada işlənir, onlar təhsilalanların formalaşması və inkişafında xidməti olan sahələr kimi dəyərləndirilir. Hətta bəzi xarici dildə olan mənbələrdə pedaqoji tənqidin tənqidi pedaqogika anlamında işlənməsinə və izah edilməsinə də rast gəlmək mümkündür. Lakin tənqidi pedaqogika (critical pedagogy) və pedaqoji tənqid (pedagogical criticism) xüsusi ifadə tərzinə və semantikaya malik olan fərqli anlayışlar olmaqla özünəməxsus funksiyalar daşıyır. Mənbələrdə tənqidi pedaqogika xüsusi təhsil və ictimai hərəkat fəlsəfəsi kimi şərh olunur. O öz fəaliyyətində tənqidi nəzəriyyə və əlaqəli ənənələrdən başlayaraq təhsil və mədəniyyətin öyrənilməsi sahəsinə qədər bütün konsepsiyaları inkişaf etdirir və tətbiqinə nail olur. Bu pedaqogikanın Braziliya alimi Paulo Freire tərəfindən bünövrəsinin qoyulması XX əsrin əvvəllərinə təsadüf edir. Braziliyalı alim, pedaqoq və filosof Paulo Freire "Məzlumların pedaqogikası" əsəri ilə onun banisi kimi tanınır.

⇦ Əvvəli səh.1

**HAŞİYƏ:** *Paulo Reglus Neves Freire XX əsrdə yaşamış pedaqoq və filosof, tənqidi pedaqogikanın yaradıcısı kimi tanınmışdır. Təhsil, pedaqogika və fəlsəfə sahələrində 20-dən çox kitab yazmışdır. O, 1968-ci ildə yazdığı "Məzlumların pedaqogikası" əsəri ilə tənqidi pedaqogikanın əsasını qoymuşdur.*

Əslində tənqidi pedaqogika ayrıca bir pedaqogika kimi özünə xas olan prinsipləri ilə fərqlənir. Belə ki, bu pedaqogika, ilk növbədə, tələbələrin səlahiyyətlərini artırmaq və onların həyat təcrübələrini mərkəzləşdirməklə daha demokratik və ədalətli təhsil sistemi yaratmağı hədəfləyir. İstənilən təlim şəraitində onun tətbiqi mümkün hesab edilir. Nəzəriyyə ilə praktikanın əlaqəliliyinin nəzərə alınması onun əsas tələblərindən biri hesab olunur.

Tənqidi pedaqogikanın digər mühüm prinsiplərindən biri də dialoqlardan istifadə olunmasıdır. Dialoq tənqidi yanaşmalar müstəvisində həm müəllimlərə, həm də şagirdlərə/tələbələrə bir-birindən öyrənməklə fikir və mülahizələrini, gələcək perspektivləri müzakirə etməyə imkan yaradır. Yaranmaqda olan müasir təhsil ənənələrini daha avtoritar və iyerarxiyaya meyilli olan ənənəvi təhsil modelindən fərqləndirir.

Tənqidi pedaqogikada düşüncə və fəaliyyətin olması vacib hesab edilir. Təhsilalanlar öz təcrübələri, yerləşdikləri sosial və mədəni kontekstlər üzərində tənqidi şəkildə düşünməyə həvəsləndirilir. Onların mövcud təhsil strukturlarına yaradıcı münasibət bəsləmələri, təkliflərin daha optimal olması üçün zəruri şəraitin yaradılması bir tələb kimi qarşıya qoyulur. Bununla şagirdlərdə/tələbələrdə sosial və siyasi məsələlərdən xəbərdar və sosial ədalətə sadiq olan tənqidi şüurun inkişafına imkan yarana bilir.

## Pedaqoji tənqid nədir?

Pedaqoji tənqid elmi-pedaqoji yaradıcılığın bir növü olub geniş mənada təhsil prosesinin, pedaqoji, metodik əsərlərin izahı, təhlili, dəyərləndirilməsi, eləcə də təhsil prosesində maraqlı olan tərəflərin yaradıcı fəaliyyətini araşdıraraq qiymətləndirilməsi, gələcək inkişaf üçün tövsiyələr verilməsi ilə məşğul olur. Pedaqoji tənqidin başlıca vəzifəsi müasir pedaqoji və elmi-pedaqoji yaradıcılıq proseslərini izləmək, eləcə də klassik pedaqoji fikrə müasir dövrün tələbi baxımından qiymət verməkdən ibarətdir.

Pedaqoji tənqid həmçinin pedaqogikaşünaslıq elminin bir sahəsi kimi başa düşülür. Əgər biz pedaqoji elmlər sisteminə daxil olan sahələri xarakterinə görə ümumiləşdirilmiş şəkildə qruplaşdırsaq, heç şübhəsiz, burada həm tarixi, həm nəzəri, həm də münasibətlərdən ibarət olan yanaşmaları aydın təsəvvür edə bilərik. Bu isə pedaqogikaşünaslıq, yaxud pedaqogika elminin pedaqogika tarixi, pedaqogika nəzəriyyəsi və pedaqoji tənqiddən ibarət infrastruktur elementlərini aydın görməyə imkan verir.

**HAŞİYƏ:** *Yeri gəlmişkən, hələ ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın görkəmli pedaqoq alimlərindən professorlar Bəşir Əhmədov və Əjdər Ağayevlə olan müzakirələri yaxşı xatırlayıram. Onlar pedaqogika elminin infrastruktur məsələlərinə və pedaqoji tənqid barəsində deyilən fikirlərə pozitiv mövqedən yanaşırdılar. Sonralar bu məsələlərlə bağlı pedaqoq alimlərimizdən professor Fərrux Rüstəmov, dosentlərdən Vidadi Bəşirov, İlham Əhmədov və başqalarının araşdırmalar aparması və fikirlər söyləməsi problemin əhəmiyyətini açıq-aydın göstərməklə yanaşı, onun hələ də gündəmdə qalmasını sübut etməkdədir.*

## Pedaqoji tənqid nə üçün lazımdır?

Pedaqoji tənqid təhsilin effektiv olmasını və şagirdlərin/tələbələrin öyrənmə və inkişaf ehtiyaclarını ödəməsini təmin etmək üçün lazımdır. Pedaqogika təlimin metod və prinsiplərinə istinad edir, tənqid isə bu metod və prinsiplərin effektivliyini müəyyən etmək üçün onların təhlilini və qiymətləndirilməsini nəzərdə tutur. Pedaqoji tənqidlə məşğul olmaqla, pedaqoqlar təkmilləşdirməli olduqları sahələri müəyyən edə və tələbələrin ehtiyaclarına daha yaxşı xidmət etmək üçün tədris təcrübələrində dəyişikliklər apara bilərlər. Bundan əlavə, pedaqoji tənqid köhnəlmiş və ya səmərəsiz tədris metodlarını müəyyən və onları daha effektiv üsullarla əvəz etməyə kömək edə bilər. Nəhayət, pedaqoji tənqid təhsilin bütün təhsilalanlar üçün aktual, cəlbedici və effektiv qalmasını təmin etmək üçün lazımdır.

Pedaqoji tənqid pedaqogika nəzəriyyəsinin daha müasir elementlərlə yeniləşməsinə töhfə verməklə əvəzsiz rola malik bir sahə kimi çıxış edir. Pedaqogika nəzəriyyəçiləri peşəkar pedaqogika tənqidçilərinə daha inamla istinad edir, onların təklifləri əsasında obyektiv dəyişikliklər aparmaqdan çəkinmirlər.

Pedaqoji tənqid həmçinin pedaqogika tarixini özünün qənaətləri ilə zənginləşdirir. Həmçinin böyük bir dövrə məxsus pedaqoji proses, yaxud tədqiqatlar barəsində ümumiləşdirmələr apararaq obyektiv fikirlər söyləyir, konkret dövr, mərhələ üçün zəruri olan xüsusiyyətləri müəyyənləşdirir. Bütün bu yanaşmaların nəticəsində pedaqogika tarixinin yeni səhifələri yaranır.

## Pedaqoji tənqidin tarixi kökləri

Pedaqoji tənqid haqqında olan fikirlərin bir qismi də onun mövcud olmaması, yaradılmasının zəruriliyi ilə bağlıdır. Həm də bu yanaşmaların meydana gəlməsi və sistemli şəkildə xidmət göstərməməsi, bilavasitə onun hazırkı islahatyönümlü fəaliyyətlərimizin tələblərinə cavab verməməsi ilə əlaqədardır. Belə ki, Azərbaycan təhsilindəki sürətli innovativ yeniliklər, cəmiyyətin tələbatına uyğun aparılan dəyişikliklər öz növbəsində subyektiv mülahizələrdən kənar elmi-nəzəri əsaslara söykənən münasibətlər, reaksiyalar tələb edir. Pedaqoji prosesin zənginləşdirilməsinə və inkişafına ardıcıl və sistemli şəkildə xidmət göstərməli olan pedaqoji tənqid hadisəsinin baş verməməsi narahatlıq yaradır.

Əslində isə pedaqoji tənqid daha mobil və çevik yanaşmaları ilə pedaqoji prosesə münasibət bildirməli, hər zaman onun inkişafını yönləndirməlidir. Hər addımda "pedaqoji tənqid pedagogika tarixi və nəzəriyyəsinin zənginləşməsinə material verməlidir" *(Fərrux Rüstəmov)*.

Pedaqoji tənqid özünün bütün koordinatları ilə bu gün müzakirə olunsa da, onu yeni, bu günün hadisəsi hesab etmək olmaz. Pedaqoji tənqid zaman-zaman pedaqoji prosesin yaranması ilə birgə təşəkkül tapmışdır. Onun tarixi kökləri qədim Yunanıstana gedib çıxır. Platon və Aristotel kimi filosoflar fərdin inkişafına, əqli və əxlaqi fəzilətlərin təbliğinə diqqət yetirən təhsil haqqında ideyalar irəli sürmüşlər. Pedaqoji tənqid bəşəriyyətin tarixi boyu hər bir dövrdə təhsilə yeni ideyalar və yanaşmalar bəxş etmişdir.

Pedaqoji proses baş verən zaman məntiqi olaraq ona münasibətlər də yaranmışdır ki, bunlar özləri pedaqoji tənqidin elementləri kimi indi də dəyərini qoruyub saxlamaqdadır. Və pedaqoji prosesin müxtəlif zamanlarda inkişafı ilə bərabər, pedaqoji tənqidin parametrləri pillə-pillə inkişaf edərək formalaşmışdır.

Artıq ötən əsrin əvvəllərindən etibarən yeni mərhələyə qədəm qoyan pedaqoji elmlərin inkişafı ilə birgə pedaqoji tənqid də fəaliyyətini davam etdirir. Azərbaycanda pedaqoji elmin inkişaf tarixini əhatəli şəkildə öyrənən istedadlı pedaqoq alim, professor Fərrux Rüstəmov özünün "Azərbaycan pedaqogikaşünaslığı" adlı əsərində belə qənaətə gəlir ki, "20-ci illərdə pedaqoji fikir məzmunca yeni mərhələyə daxil oldu. Yaranmaqda olan yeni pedaqogika elminin nəzəri problemləri, metodoloji məsələləri, xüsusilə pedaqoji cərəyanların təsnifatı ilə bağlı müxtəlif fikirlər pedaqoji tənqidin tədqiqat və diskussiya predmetinə çevrildi". Və beləcə inkişaf etməkdə olan pedaqoji proseslə yanaşı, praktik olaraq münasibətlər fonunda özünü göstərən, pedaqoji tənqidi simvolizə edən müxtəlif səviyyəli təhlillər, yanaşmalar formalaşdı. Lakin təhlillərin dərin olmaması, orada təsvirçiliyin üstünlük təşkil etməsi, ümumiləşdirmələrin zəifliyi pedaqoji tənqidin gücünə, effektliliyinə təsir göstərdi. Bu isə bilavasitə pedaqoji tənqidin ümumi prinsiplərinin, elmi-nəzəri əsaslarının formalaşmaması ilə bağlı idi. Həqiqi olan isə bu idi ki, daim müsbətə doğru dəyişməkdə olan pedaqoji proses pedaqogika tarixi və pedaqogika nəzəriyyəsi kimi elm sahələrinin inkişafını tələb etməklə yanaşı, onların əlaqə və birliyini təmin edən pedaqoji tənqidin elmi əsasda formalaşmasına ehtiyac duyurdu. Onun obyektivlik tribunasından söylənilən təkliflərindən qidalanmaq istəyirdi.

## Pedaqoji tənqidin vəzifələri

Pedaqoji tənqid daha çox pedaqoji aləmi dərk etmək və təhsilin keyfiyyətini artırmaq məqsədilə təhsil proseslərinin, təcrübələrinin və məhsullarının sistemli öyrənilməsi ilə məşğul olur. Son dövrlərdə texnologiyaların inkişafı, qloballaşma və sosial dəyişikliklər nəticəsində təhsil sistemlərinin mürəkkəbləşməsi, ciddi sosial fenomenə çevrilməsi pedaqoji tənqidin üzərinə düşən məsuliyyəti daha da artırmışdır.

Pedaqoji tənqid mahiyyət etibarı ilə pedaqogikaşünaslığın təhsil təcrübələrinin, nəzəriyyələrinin və materiallarının təhlili və qiymətləndirilməsi ilə məşğul olan bir sahəsidir. O, təhsilin müxtəlif aspektlərini tənqidi şəkildə araşdıraraq tədris və öyrənməni təkmilləşdirmək məqsədi daşıyır. Onun bir sıra bəzi vəzifələrini aşağıdakı kimi qeyd etmək olar.

**1.** *Təhsil proqramlarının (kurikulumların) təhlili.* Tədris olunan materialın uyğunluğu, düzgünlüyü və əhatəliliyinin qiymətləndirilməsi üçün kurikulumun məzmunu və strukturu diqqətlə nəzərdən keçirilir. Həmçinin effektiv təlim nəticələrini təşviq etmək üçün kurikulumun ardıcıllığının və təşkilinin qiymətləndirilməsi aparılır.

**2.** *Tədris metodlarının tədqiqi.* Tədris metodları dedikdə müxtəlif tədris metodlarının və təlim strategiyalarının təhlili nəzərdə tutulur. Buraya interaktiv təlim məşğələləri, mühazirə əsaslı tədris, sorğuya əsaslanan öyrənmə və ya layihəəsaslı öyrənmə kimi müxtəlif yanaşmaların effektivliyinin qiymətləndirilməsi daxildir. Həmçinin bu metodların müxtəlif fənlər, yaş qrupları və öyrənmə səviyyələri üçün uyğunluğu nəzərdə tutulur.

**3.** *Müasir təhsil proseslərinin mahiyyətinin dərk olunması.* Vəziyyəti öyrənmək və gələcək fəaliyyətləri müəyyənləşdirmək məqsədilə pedaqoji proseslər və təcrübələrlə bağlı aparılmış monitorinq və qiymətləndirmələrin nəticələrini təhlil edir, dövri olaraq ümumiləşdirmələr aparır, strateji addımlar üçün təkliflər verir. Təhsil sahəsi üzrə ədəbiyyatın tələbələrə, müəllimlərə və digər maraqlı tərəflərə təsirini araşdırır, təhsil sisteminin şagirdləri/tələbələri gələcəyə necə hazırladığını qiymətləndirir.

**4.** *Qiymətləndirmə təcrübələrinin dəyərləndirilməsi.* Burada təhsilalanların öyrənməsini qiymətləndirmək üçün istifadə olunan metodların araşdırılması, o cümlədən qiymətləndirmələrin ədalətliliyinin, etibarlılığının, düzgünlüyünün və s. qiymətləndirilməsi nəzərdə tutulur. Həmçinin onların bilik və bacarıqlarının daha hərtərəfli başa düşülməsinə kömək edən alternativ qiymətləndirmə yanaşmaları da əhatə olunur.

**5.** *Tədris materiallarının qiymətləndirilməsi.* Tədris materialı kimi dərsliklərin, tədris vəsaitlərinin və digər tədris materiallarının nəzərdən keçirilməsi də pedaqoji tənqidin vəzifəsinə daxil olunan məsələlərdəndir. Orada təqdim olunan məlumatın düzgünlüyünün, istifadə edilən dilin və görüntülərin uyğunluğunun qiymətləndirilməsi, müxtəlif perspektivlərin və təcrübələrin təmsil olunması əsas şərtlər kimi diqqət mərkəzində saxlanılır. Materialların bütün təhsilalanlar üçün əlçatanlığının və inklüzivliyinin mümkünlüyü vacib şərt kimi götürülür.

**6.** *Sinif idarəçiliyi.* Sinif idarəçiliyinə müəllimlərin müsbət və inklüziv öyrənmə mühitini necə qurduğunu, şagird/tələbə davranışını necə idarə etdiyini və təhsilalanları fəallığa necə təşviq etdiyini, eləcə də sinif idarəetmə üsullarının motivasiyası və təlim nəticələrinə təsirini qiymətləndirmək daxildir.

**7.** *Sosial-mədəni amillərin nəzərə alınması.* Pedaqoji tənqid təhsilin baş verdiyi sosial-mədəni konteksti nəzərə alır. Burada təhsil təcrübələri və materiallarının müxtəliflik, bərabərlik və sosial ədalət məsələlərini necə əks etdirdiyini və həll etdiyini araşdırmaq, həmçinin ictimai normaların, dəyərlərin tədris və öyrənməyə təsirini nəzərə almaq əsas götürülür.

**8.** Pedaqoji innovasiyaların sosial dəyişikliklərə uyğun aparılmasını, onların müasir şagirdlərə/tələbələrə uyğunluğunu müəyyənləşdirir və şərh edir, pedaqoji ictimaiyyəti ondan istifadəyə təşviq edir və s.

Pedaqoji tənqid bu vəzifələri yerinə yetirməklə təkmilləşdirilməli sahələri müəyyən etmək, təhsil işçiləri arasında mənalı dialoqu asanlaşdırmaq və daha effektiv təhsil təcrübələrinin inkişafına kömək etmək məqsədini yerinə yetirə bilər.

Ölkəmizdə aparılan təhsil islahatları, quruculuq işləri, bilavasitə pedaqoji tənqidə olan ənənəvi münasibətlərin dəyişməsi onun məqsəd və vəzifələrinin, fəaliyyətinin obyektivliyini təmin edə bilən elmi prinsiplərinin müəyyənləşdirilməsini tələb edir.

## Pedaqoji tənqidin prinsipləri

Pedaqoji tənqid təhsil məqsədlərinə çatmaqda pedaqoji yanaşmaların effektivliyini, aktuallığını və təsirini qiymətləndirmək məqsədi daşıyır. Pedaqoji tənqid öz fəaliyyətini bir sıra elmi prinsiplər əsasında davam etdirir ki, onlardan bəziləri aşağıdakılardan ibarətdir.

**1.** *Təhsil prosesinə uyğunluq.* Pedaqoji tənqid təhsil təcrübələrinin təhsilalanların məqsədləri, ehtiyacları və gözləntiləri, eləcə də daha geniş ictimai və mədəni kontekstlərlə uyğunlaşdırılmasını nəzərdən keçirir. O, təhsil məzmununun, metodlarının və materiallarının öyrənənlər üçün uyğun və mənalı olub-olmadığını araşdırır.

**2.** *Təlim nəticələrinin nəzərə alınması.* Pedaqoji tənqid nəzərdə tutulan təlim nəticələrinə diqqət yetirir və tətbiq edilən pedaqoji strategiyaların bu nəticələrin əldə olunmasına effektiv kömək edib-etmədiyini qiymətləndirir. O, öyrənmə məqsədlərinin aydın, ölçülə bilən və müvafiq səviyyədə olduğunu müəyyənləşdirir.

**3.** *Sübutların tədqiqata əsaslanması.* Pedaqoji tənqid təhsil təcrübələrinin effektivliyini qiymətləndirmək üçün tədqiqata əsaslanan sübutlara və empirik məlumatlara istinad edir. Tənqid və qiymətləndirmə prosesini məlumatlandırmaq üçün təhsil tədqiqatlarının nəticələrini, nəzəriyyələri və ən yaxşı təcrübələri əsas götürür.

**4.** *Yanaşmaların şagird/tələbə mərkəzli olması.* Pedaqoji tənqid şagirdlərin/tələbələrin ehtiyaclarını, maraqlarını və təcrübələrini prioritetləşdirir. Pedaqoji yanaşmalarda şagirdlərin/tələbələrin müxtəlif öyrənmə üslublarını, qabiliyyətlərini və imkanlarını nəzərə alıb-almadığını yoxlayır, fəal iştirak, tənqidi düşüncə və mənalı öyrənmə təcrübələrini təşviq edir.

**5.** *Davamlı təkmilləşdirmə.* Pedaqoji tənqid təhsil təcrübələrində davamlı təkmilləşdirmə ehtiyacını qəbul edir. O, müəllimləri özünüqiymətləndirmə ilə məşğul olmağa, rəy almağa və tədris metodlarının effektivliyini artırmaq üçün lazımi düzəlişlər aparmağa istiqamətləndirir.

**6.** *Etik mülahizələrin nəzərə alınması.* Pedaqoji tənqid təhsildə etik mülahizələri də nəzərə alır. O, pedaqoji təcrübələrin öyrənənlərin hüquq və ləyaqətinə hörmət edib-etmədiyini, inklüzivliyi və bərabərliyi təşviq edib-etmədiyini, müsbət öyrənmə mühitini dəstəklədiyini qiymətləndirir.

Bu prinsiplər təhsilin cəlbedici, effektiv və mənalılığını müəyyən etmək üçün pedaqoji təcrübələrdən istifadə olunmasına imkan yaradır. Həmçinin müəllimlərə tədris metodlarını təkmilləşdirmək və təhsilin keyfiyyətini artırmaq üçün əsaslandırılmış qərarlar qəbul etməyə kömək edir.

## Nəticə

Biz bu məqalədə pedaqoji tənqidin bəzi məsələləri barədə danışdıq. Ölkəmizdə aparılan təhsil sahəsindəki quruculuq işləri ona diqqətin artırılmasını, pedaqoji tənqidin pedaqogikaşünaslıq elminin bir təkib hissəsi kimi öyrənilməsini və tətbiqini tələb edir. Bunun üçün pedaqoji tənqidlə bağlı strateji addımların müəyyənləşdirilməsi, müxtəlif təhsil müəssisələrində pedaqoji prosesin keyfiyyət səviyyəsini müəyyən edən və onun inkişafını dəstəkləyən müzakirə və diskussiyaların keçirilməsi təklif olunur.

# "Erasmus+" layihəsi çərçivəsində təlimlər keçirilib



Mingəçevir Dövlət Universitetinin (MDU) koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) mövzusunda "Erasmus+" layihəsi çərçivəsində növbəti təlimlərə start verilib. Avqustun 28-dən sentyabrın 1-dək davam edən təlimlər Estoniyanın Tallin Texnologiya Universitetində (TalTech) keçirilib.

MDU-dan AZƏRTAC-a bildirilib ki, təlim səfərində ENGAGE layihəsində təmsil olunan 11 Azərbaycan universitetinin rektorları, prorektorları, inzibati və akademik heyət üzvləri iştirak ediblər.

Səfərin əsas məqsədi Estoniyanın aparıcı ali təhsil müəssisələrindən biri olan "TalTech"in sahibkarlıq təhsili sahəsindəki qabaqcıl təcrübəsinin öyrənilməsindən ibarətdir.

Təlimlər çərçivəsində sahibkarlıq təhsili, universitet-sənaye əməkdaşlığı, Estoniyanın startap ekosistemi, rəqəmsallaşma, elektron idarəetmə və digər mövzularda seminarlar keçirilib, nümayəndə heyəti "TalTech" İnnovasiya və Biznes Mərkəzini, universitetin müvafiq laboratoriyalarını və Estoniyanın ən böyük startapını ziyarət edib.

Təlimlərin açılışında çıxış edən "TalTech"in rektoru Tiit Land qonaqları salamlayıb, rəhbərlik etdiyi universitet haqqında ətraflı məlumat verib və təcrübə mübadiləsinin faydalı olacağına əminliyini bildirib.

Giriş nitqi söyləyən MDU-nun rektoru Şahin Bayramov "TalTech"in rəhbərliyinə və müvafiq əməkdaşlarına Azərbaycan nümayəndə heyəti adından təşəkkür edib, ENGAGE layihəsi barədə məlumat verib, layihə çərçivəsində həyata keçiriləcək tədbirlərdən əsas gözləntiləri diqqətə çatdırıb.

Təlimlərdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru vəzifəsini icra edən Zəfər Qurbanov və digərləri iştirak ediblər.

Qeyd edək ki, ENGAGE layihəsi çərçivəsində ilk təlimlər cari ilin 21-25 avqust tarixlərində İsveçin KTH Kral Texnologiya Universitetində keçirilib. MDU Azərbaycanda koordinator statusunda Erasmus+ layihəsinin qalibi olan ilk region universitetidir. 36 ay müddətində reallaşdırılacaq layihənin əsas məqsədi Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi, universitetlərimizdə innovativ yanaşmanın təkmilləşdirilməsi, tədris prosesinin məzmununda praktiki komponentlərin artırılması, startap fəaliyyətlərinin və universitet—sənaye əməkdaşlığının genişləndirilməsidir.

# HTP çərçivəsində 8 nəfər Latviyada təhsil alacaq



**Azərbaycan və Latviya arasında təhsil sahəsində əməkdaşlığın nəticəsi olaraq, 2023-2024-cü tədris ili üzrə 8 azərbaycanlı "Latviya dövlət təqaüdü"nə layiq görülüb.**

**Seçim barədə Latviya Respublikası tərəfindən verilən yekun qərar nəticəsində 8 nəfər bu ölkənin "Riga Technical University", "University of Latvia", " Turiba University" ali təhsil müəssisələrində təhsil hüququ qazanıb. Onlardan 6 nəfəri magistratura, 2 nəfəri isə doktorantura səviyyələri üzrə biznes və idarəetmə, kompüter elmləri, mühəndislik, səhiyyə, sosial və davranış elmləri ixtisaslarında təhsil alacaq.**

**Qeyd edək ki, Latviya hökumətinin bu təqaüdünü qazanan 23 ölkə üzrə Azərbaycan ilk üçlükdə yer alır.**

**Müvafiq təqaüd proqramı barədə 1 aprel 2023-cü il tarixində elan *(https://htp.edu.az/az/news/1220)* verilib.**